

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 98 (21.508)

28 may 2016-cı il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Mayın 27-də "Buta" sarayında Azərbaycanın milli bayramı – Respublika Günü münasibətilə rəsmi qəbul keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəsmi qəbulda iştirak edib.

Dövlətimizin başçısı tədbirdə nitq söyləyib.

Sonra dövlət mükafatlarının təqdim edilməsi mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə 2016-cı il üçün elm və ədəbiyyat sahələrində dövlət mükafatları təqdim edilib.

* * *

Mayın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə Bakının İstiqlaliyyət küçəsində ucaldılmış abidəni Respublika Günü münasibətilə ziyarət edib.

Dövlətimizin başçısı abidənin önünə əklil qoyub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də ATƏT Parlament Assambleyasının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Kristian Viqenini qəbul edib.



## Naxçıvanda Göycə festivalı keçirilmişdir





Muxtar respublikada meyvəçiliyin inkişafı sahəsində ardıcıl tədbirlər görülür, qəbul edilən dövlət proqramlarına uyğun olaraq yeni meyvə bağları salınır. Bu istiqamətdə görülən işlərin nəticəsidir ki, hər il torpaq mülkiyyətçiləri, bağbanlar bol məhsul istehsal edirlər. Naxçıvana məxsus meyvə sortlarının istehsalının artırılması ilə yanaşı, onların təbliği və tanıdılması da diqqət mərkəzində saxlanılır.

Mayın 27-də Naxçıvanqala Tarix-Memarlıq Muzey Kompleksində Göycə festivalı keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Göycə festivalında iştirak etmişdir.

Tədbirin aparıcısı qeyd etmişdir ki, qədim Naxçıvan zəngin mədəniyyəti, çoxəsrlik tarixi ilə yanaşı, bu torpaqda yetişən nemətləri ilə də dünyada tanınır. Naxçıvanın istər təbii duzu və mineral bulaqları, istərsə də barlı-bəhərli bağlarında yetişən növbənöv meyvələri süfrələrimizin dadı-tamına, bərəkətinə çevrilmişdir. Bütün bunlara görədir ki, hələ orta əsrlərdə səyyahlar Naxçıvanı "meyvə cənnəti" adlandırmışlar. Naxçıvanda hər mövsümün öz meyvəsi vardır. Bu meyvələr içərisində öz dadı-tamı ilə seçilən, yalnız Naxçıvanda bitən bir meyvə də vardır ki, o da göycədir. Naxçıvanlı bağbanların, xalq seleksiyaçılarının əməyinin bəhrəsi olan Naxçıvan göycəsinin tarixi 7-ci əsrə gedib çıxır. Bu gün Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında göycənin müxtəlif növləri yetişdirilir.

Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun elmi işçisi, aqrar elmlər doktoru Varis Quliyev çıxış edərək demişdir ki, Naxçıvan göycəsi xalq seleksiyası yolu ilə Naxçıvan alçası növündən yaradılmışdır. Bu sort becərildiyi arazinin və faraş yeyildiyi məhsulun rənginə müvafiq olaraq adlandırılmışdır. "Göycə" sözü göyümtül-yaşıl mənasında olmaqla bərabər, "yeni", "təzə" mənasını da ifadə edir. Göycə muxtar respublikada yazın ilk yeyilən meyvə sortlarından biridir. Naxçıvanın torpaq-iqlim şəraiti göycənin tez böyüməsi, inkişafı, bol və yüksəkkeyfiyyətli məhsul verməsi üçün olduqca əlverişlidir.



Əsasən Arazboyu maili düzənlik ərazilərdə Naxçıvan göycəsi sortundan ibarət bağların salınması üçün olduqca əlverişli ekoloji mühit vardır. Çoxillik göycə ağacları 10-25 il normal məhsul verir, hər bir ağacdan ildə təqribən 50 kiloqrama qədər məhsul toplanılır. Naxçıvan göycəsi, adətən, yazda, yayda və payızda müxtəlif calaq üsulları ilə çoxaldılır. Calaqaltı kimi çəyirdəkli meyvələrin tinglərindən istifadə edilir. Calaqetmədə albuxara ağacından istifadə etdikdə göycə meyvələri nisbətən iri və şirin, badam ağacına calaq edildikdə isə göycə ağacları uzunömürlü olur.

Varis Quliyev muxtar respublikada meyvəçiliyin inkişafına göstərdiyi diqqət və qayğıya görə Göycə festivalının iştirakçıları adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıq etmişdir.

Sonra Ali Məclisin Sədri və tədbir iştirakçıları Naxçıvan göycəsinin sərgi-satışı ilə tanış olmuşlar.

Məlumat verilmişdir ki, bu il muxtar respublikada bol göycə yetişdirilmişdir. Festivala Naxçıvan şəhərindən, Şərur, Babək və Ordubad rayonlarından olan 70 torpaq mülkiyyətçisinin yetişdirdiyi müxtəlif növdə 3 tondan çox göycə çıxarılmışdır. Həmçinin festival iştirakçılarına göycədən hazırlanan məhsullar – mürəbbə, kompot, turşu, göycə qurusu, eləcə də göycə lavaşası təqdim olunmuşdur. Naxçıvan göycəsi hazırda daxili bazarın tələbatını ödəməklə yanaşı, satış üçün ölkəmizin digər bölgələrinə də göndərilir.

Göycədən hazırlanan müxtəlif fiqurlar maraqlı kompozisiya yaratmış, Naxçıvan Dövlət Filarmoniyasının Muğam Studiyasının ifaları festivala xoş ovqat qatmışdır. Bu cür festivalların keçirilməsi Naxçıvan məhsullarının tanıdılması ilə yanaşı, turistlərin də böyük marağına səbəb olur.

Festival iştirakçıları monitorda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Naxçıvan göycəsi haqqında söylədiyi fikirlərin video görüntülərini izləmişlər.

Ali Məclisin Sədri göycə yetişdirən torpaq mülkiyyətçiləri ilə söhbət etmiş, onların qayğıları ilə maraqlanmışdır.

Festivalın keçirilməsinin Naxçıvan göycəsinin tanıdılması baxımından mühüm əhəmiyyət kəsb etdiyini qeyd edən Nehrəm kənd sakini, bağban Tofiq Abutalıbov muxtar respublikada meyvəçiliyin inkişafı üçün hərtərəfli şəraitin yaradıldığını, istehsal etdikləri məhsulları kənd təsərrüfatı yarmarkalarında rahat şəkildə satdıqlarını bildirmiş, bütün bunlara görə torpaq mülkiyyətçiləri adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Ali Məclisin Sədri Göycə festivalının təşkilatçılarına təşəkkürünü bildirmiş, festivalın ənənə halını almasının əhəmiyyətini qeyd etmiş, göycə meyvəsinin elmi şəkildə öyrənilməsi və çoxaldılması, yeni bağların salınması, göycədən sənaye üsulu ilə məhsul istehsalının genişləndirilməsi və ixracı barədə aid təşkilatlara tapşırıqlar vermişdir.

Festivalda göycə yetişdirən fermerlər arasında müsabiqə keçirilmiş, qaliblərə hədiyyələr təqdim olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



## Qarsda 28 May – Respublika Günü münasibətilə tədbir keçirilmişdir

***Mayın 25-də Azərbaycan Respublikasının Türkiyənin Qars şəhərindəki Baş Konsulluğunda 28 May – Respublika Günü münasibəti ilə tədbir keçirilmişdir.***

Əvvəlcə Azərbaycan və Türkiyə respublikalarının Dövlət himnləri səsləndirilmişdir.

Azərbaycanın Qarsdakı Baş konsulu Ayxan Süleymanlı tədbirdə çıxış edərək demişdir ki, Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə ilk demokratik respublika kimi tarixə düşmüşdür. Hələ ötən əsrin əvvəllərində demokratik dövlət modelinin yaradılması Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində yeni bir mərhələnin başlanğıcı olmuşdur. 70 il Sovetlər Birliyinin tərkibində qalan Azərbaycan ötən əsrin 90-cı illərində yenidən dövlət müstəqilliyini qazanmışdır. Həmin dövrdə ölkədə baş verən hadisələr yenicə qazandığımız müstəqilliyi itirmək təhlükəsi yaratmışdı. Lakin ümummilli liderimiz Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıtması ilə Azərbaycanda sabitlik yaradılmış, qanunçuluq, demokratik prinsiplər bərqərar edilmiş, müstəqilliyimiz əbədi və dönməz xarakter almışdır. Ulu öndərin müəyyənləşdirdiyi siyasi xətt bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.



Qeyd olunmuşdur ki, ümummilli liderin uzaqgörən siyasəti sayəsində Azərbaycan-Türkiyə münasibətləri yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu gün Azərbaycan və Türkiyə regionda beynəlxalq enerji və nəqliyyat layihələrinin iştirakçısıdırlar. Hazırda tikintisi davam etdirilən Bakı-Tbilisi-Qars dəmir yolu xətti ölkələrimiz arasındakı münasibətlərin daha da genişləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Qars Vilayətinin valisi Günay Özdəmir Azərbaycan xalqının öz dövlət müstəqilliyini qazanmasını tarixi nailiyyət kimi dəyərləndirmiş, Türkiyə-Azərbaycan münasibətlərinin bu gün uğurla davam etdirildiyini bildirmişdir.

Tədbirdə Qars və İqdır şəhər ictimaiyyətinin nümayəndələri, Qars Qafqaz Universitetinin müəllim və tələbələri, eləcə də kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etmişlər.

Sonda Azərbaycan Respublikasının Türkiyənin Qars şəhərindəki Baş Konsulluğu tərəfindən ziyafət verilmişdir.

**“Şərq qapısı”**

*Müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti ölkəmizin çoxəsrlik sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi kimi meydana çıxmışdır. Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın siyasi şüur səviyyəsinin, intellektual və mədəni potensialının, yüksək istedad və qabiliyyətinin göstəricisi idi. Ümummilli lider Heydər Əliyev deyirdi:* ***“Azərbaycan Xalq Cümhuriyyəti qısa müddət ərzində həyata keçirdiyi ciddi tədbirlər sayəsində bütün dövlətçilik atributları – öz parlamenti, ordusu və pul vahidi olan müstəqil, suveren bir dövlətə çevrildi. O, bütün dövlətçilik göstəricilərinə və prinsiplərinə görə Şərqdə ilk demokratik respublika idi. Azərbaycanın Milli Şurasının qəbul etdiyi tarixi bəyannamə yeni yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasətinin başlıca prinsiplərini bütün dünyaya bildirdi. Bəyannamədə elan edilmiş prinsiplər – Azərbaycan xalqının öz müqəddəratını müəyyən etmək, insanların hüquq bərabərliyinə hörmət, bütün xarici dövlətlərlə, habelə qonşu xalqlarla dinclik və əmin-amanlıq şəraitində yaşamaq, bir-birinin suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşmaq prinsipləri Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq nüfuzunu artırdı”.***

*28 May Respublika Günüdür*

## Şərqdə ilk demokratik respublika

Birinci Dünya müharibəsi Çar Rusiyasının ağır vəziyyətə düşməsi, eyni zamanda imperiya mərkəzində baş vermiş inqilab imperiyanın müstəmləkələrində yaşayan xalqların azadlıq uğrunda mübarizəyə qalxması ilə nəticələnmişdi. 1918-ci ilin fevralında yaradılmış Zaqafqaziya seymi həmin il may ayının 25-də dağıldıqdan sonra mayın 27-də seymin 44 nəfərlik müsəlman fraksiyası Azərbaycanın istiqlaliyyətini elan etmək və ilk milli hökuməti yaratmaq üçün Tiflisdə toplaşmışdır. Fraksiya Azərbaycanın idarə olunmasını öz üzərinə götürərək Azərbaycan Milli Şurasını yaratmışdır. Milli Şuranın mayın 28-də keçirilən tarixi iclasında qəbul edilən 6 maddədən ibarət İstiqlal Bəyannaməsi ilə Azərbaycanın dövlət müstəqilliyi elan olunmuşdur. Bəyannamədə Azərbaycan tamhüquqlu müstəqil dövlət, onun idarə forması isə xalq cümhuriyyəti elan edilirdi.

Fətəli xan Xoyskinin başçılığı ilə Azərbaycan Milli Şurasının iclasında Azərbaycan Xalq Cümhuriyyətinin ilk müvəqqəti hökumətinin tərkibi təsdiq olunmuşdur. Bu zaman Bakı şəhəri Bakı Xalq Komissarları Sovetinin nəzarətində olduğu üçün 1918-ci il iyunun 16-da Azərbaycan Milli Şurası və müvəqqəti hökumət Tiflisdən Gəncəyə köçmüşdür. Bir gün sonra Gəncədə Milli Şura öz fəaliyyətini müvəqqəti olaraq dayandırmış və Müəssislər Məclisi çağırılanadək bütün hakimiyyəti Fətəli xan Xoyskinin sədrliyi ilə yaradılmış ikinci hökumətə həvalə etmişdir.

Parlamentli respublikanın qurulması Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində yeni bir mərhələnin başlanğıcı idi. Dövlət quruculuğu istiqamətində ilk günlərdən qəti tədbirlər görülmüş, iyunun 26-da müsəlman hərbi korpusunun ayrıca Azərbaycan Korpusuna çevrilməsi ilə Milli Ordunun yaradılmasının əsası qoyulmuşdur. Həmin dövrdə hökumətin qarşısında duran ən mühüm vəzifə ölkənin bütün ərazisində Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyətini bərqərar etmək, Bakını və onun ətrafını düşmənlərdən təmizləmək idi. 1918-ci il sentyabrın 15-də Azərbaycan Xalq Cümhuriyyətinin birləşmiş hərbi qüvvələrinin misilsiz mübarizəsi sayəsində Bakı azad edilmiş, sentyabrın 17-də Azərbaycan hökuməti Bakıya köçmüşdür.

1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyətinin üzərində aypara və səkkizguşəli ulduz təsviri olan üçrəngli dövlət bayrağı qəbul olunmuşdur. Hökumət parlamentli respublika idarəçiliyinin hüquqi norma və qaydalarına uyğun olaraq Müəssislər Məclisinin çağırılması üçün bir sıra tədbirlər həyata keçirsə də, ölkədə yaranmış ağır ictimai-siyasi vəziyyət parlamentə seçkilər keçirməyi çətinləşdirirdi. Milli hökumət Azərbaycan parlamentini mümkün qədər tez formalaşdırmağa çalışırdı. 1918-ci il noyabrın 16-da toplanan Milli Şura mövcud fövqəladə şəraitdə Müəssislər Məclisinin çağırılmasının qeyri-mümkünlüyü ilə əlaqədar olaraq, ali hakimiyyət orqanı kimi “Azərbaycan parlamentinin yaradılması haqqında” Qanun layihəsini hazırlamış və həmin il noyabrın 19-da bu qanunu qəbul etmişdir.

Milli Şura tərəfindən təşkil edilmiş parlamentin 1918-ci il dekabrın 7-də Hacı Zeynalabdin Tağıyevin Qızlar məktəbinin binasında təntənəli açılışı olmuşdur. İlk parlamentin sədri Əlimərdan bəy Topçubaşov, onun birinci müavini isə Həsən bəy Ağayev seçilmişdir. Dövrün bütün çətinliklərinə baxmayaraq, parlament 17 aylıq aramsız fəaliyyəti dövründə həyata keçirdiyi müstəqil dövlət quruculuğu təcrübəsi ilə Azərbaycan dövlətçiliyi tarixində dərin iz qoymuşdur. Şərqdə ilk dəfə olaraq Azərbaycanda qadınlara seçmək və seçilmək hüququ verilmiş, parlamentin işində Azərbaycanın ziyalı və ictimai fəal qadınları iştirak etmişlər. Parlamentin sədri Əlimərdan bəy Topçubaşovun rəhbərlik etdiyi nümayəndə heyətinin Paris Sülh Konfransında uğurlu diplomatik fəaliyyəti sayəsində 1920-ci il yanvarın 11-də Azərbaycan müstəqil dövlət kimi tanınmışdır. Azərbaycan Xalq Cümhuriyyəti fəaliyyət göstərdiyi dövr ərzində 20-dən çox dövlətlə diplomatik əlaqələr yaratmışdır.

Ölkənin ərazi bütövlüyünü və suverenliyini qoruyub saxlamaq üçün çox çətin şəraitdə mübarizə aparan Azərbaycan Xalq Cümhuriyyəti bütün imkanlardan istifadə edərək taleyüklü məsələlərin həllinə çalışırdı. Cümhuriyyətin ölkəmizin ərazi bütövlüyünü qorumağa yönəlmiş tədbirlərindən biri də Naxçıvan məsələsi idi. Çünki o dövrdə Naxçıvan ağır illər yaşayırdı. Naxçıvan həm daxildə, həm də beynəlxalq aləmdə müxtəlif maraqların toqquşduğu nöqtələrdən birinə çevrilmiş, mənfur ermənilərin Naxçıvana hücumları vəziyyəti daha da mürəkkəbləşdirmişdi. Naxçıvan əhalisi regionun Azərbaycanın tərkib hissəsi kimi qorunub saxlanılması üçün inamla mübarizə aparırdı. Azərbaycan Xalq Cümhuriyyətinin Baş nazirləri olmuş Fətəli xan Xoyski və Nəsib bəy Yusifbəyli Naxçıvanın Azərbaycan ərazisi kimi qorunub saxlanılması üçün siyasi, diplomatik, maddi və mənəvi vasitələrdən istifadə edir, qəhrəman naxçıvanlıların fəaliyyətini yüksək qiymətləndirirdilər.

Fətəli xan Xoyski parlamentin iclasında Naxçıvan bölgəsinin qəhrəman əhalisinin Vətənə qovuşmaq üçün öz həyatları və ailələri ilə risk edərək mübarizəyə qalxıb azadlığa çıxdıqlarını söyləmişdi. Nəsib bəy Yusifbəyli 1919-cu il dekabrın 22-də parlamentdəki çıxışında Naxçıvanın öz qüvvələri ilə istilaçıları devirərək, Azərbaycanla birləşməyə hazır olduğunu bildirərək demişdir: “İgid naxçıvanlılar, şərurlular və vedibasarlılar bu məsələni özləri həll ediblər; onlar həyatlarını, ailələrinin şərəfini və var-dövlətlərini riskə qoyaraq doğma torpağa – Vətənə qovuşmaq üçün ayağa qalxıb azad oldular və bununla da, hökumətin işini asanlaşdırdılar. Güman edirəm ki, haqq və ədalət tərəfdarları bu qətiyyəti, fədakarlığı və vətənpərvərliyi görəndən sonra onların qanuni hüquqlarını danmayacaqlar...”

Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti və parlamenti bütün vasitələrdən istifadə edərək Naxçıvanın ermənilər tərəfindən işğal edilməsinə yol verməmiş, bu istiqamətdə diplomatik danışıqlar aparılmışdır. Ancaq ölkədə yaranmış mürəkkəb ictimai-siyasi və hərbi vəziyyət bəzi hallarda hökumətin öz məqsədlərinə tam çata bilməməsinə səbəb olmuşdur. Beləliklə, naxçıvanlıların igidliyi və qəhrəmanlığı sayəsində bu qədim diyar Azərbaycanın tərkib hissəsi kimi qorunub saxlanılmışdır.

Azərbaycan Xalq Cümhuriyyəti 23 ay fəaliyyət göstərsə də, xalqımızın öz müqəddəratını təyin etməyə qadir olduğunu bütün dünyaya nümayiş etdirmişdir. Bu qısa tarixi dövr Azərbaycan xalqının dövlətçilik ənənələrinin bərpasına və milli mənlik şüurunun güclənməsinə böyük təsir göstərmişdir. Təəssüf ki, 1920-ci ilin aprelində yaranmış tarixi şərait xalqımıza istiqlal mücadiləsini sonadək davam etdirməyə imkan verməmişdir.

Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbər seçildiyi 1969-cu ilin 14 iyulu ölkəmizi həqiqi müstəqilliyə aparan yolun başlanğıcı olmuşdur. Görkəmli dövlət xadiminin rəhbərliyi altında ötən əsrin 70-80-ci illərində həyata keçirilmiş tədbirlər ölkəmizin XX əsrin 90-cı illərində müstəqillik uğrunda mübarizəsinə real hüquqi-siyasi və iqtisadi əsaslar yaratmışdır. Ötən əsrin sonlarında Azərbaycan yenidən öz istiqlaliyyətini bərpa etmək imkanı əldə etmişdir. Lakin ötən əsrin əvvəllərində olduğu kimi, əsrin sonlarında da mühüm coğrafi-strateji mövqeyi olan ölkəmiz real məhvolma təhlükəsi ilə üz-üzə qalmışdı. Erməni daşnakları tərəfindən hərbi təcavüzə məruz qalmış respublikamızda çox təhlükəli vəziyyət yaranmışdı.

Tarixi hadisələr göstərir ki, Azərbaycan xalqı müstəqil dövlətini yaratmaq istəyəndə daim erməni faktoru ilə üzləşmiş, Azərbaycanın müstəqil dövlət olmasını istəməyənlər “erməni məsələsi”ndən yetərincə istifadə etmişlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizdə yaranmış gərgin vəziyyəti belə xarakterizə etmişdir: ***“Bütün tarix boyu xalqımızın müstəqillik arzusu ilə yanaşı, bu istəyə qarşı həyata keçirilmiş faciə və soyqırımı hadisələri də heyrətamiz şəkildə təkrar olunmuşdur. Xalqımızın bəxti onda gətirmişdir ki, ötən əsrin sonlarında nail olduğumuz ikinci dövlət müstəqilliyi üçün real təhlükə yarandığı bir dövrdə Heydər Əliyev kimi qüdrətli şəxsiyyət yenidən ali hakimiyyətə qayıtmış, Azərbaycan Xalq Cümhuriyyəti ilə başlanan milli dövlətçiliyi arzudan reallığa çevirmişdir”.***

Xalqımız yeni tarixi şəraitdə öz dövlət müstəqilliyini bərpa etdikdən sonra ulu öndər Heydər Əliyevin rəhbərliyi altında Xalq Cümhuriyyətinin ənənələrini əsas tutaraq müstəqil Azərbaycan dövlətini yaratmışdır. Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətindən fərqli olaraq, mürəkkəb vəziyyətdə öz müstəqilliyini və suverenliyini qorumağı və möhkəmləndirməyi bacarmış, dövlətçiliyin qorunması üçün qətiyyətli tədbirlər görülmüşdür. Dahi şəxsiyyət Heydər Əliyevin böyük siyasi təcrübəsi, qətiyyəti və misilsiz xidmətləri nəticəsində Azərbaycan nəinki öz müstəqilliyini qorumuş, həmçinin Azərbaycan Xalq Cümhuriyyəti ilə müstəqil Azərbaycan Respublikası arasında varislik əlaqəsini təmin etmişdir.

Ümummilli liderimiz Heydər Əliyev bütün həyatını Azərbaycanın müstəqilliyinə həsr etmişdir. 1990-cı il noyabrın 17-də ulu öndərimizin sədrliyi ilə keçirilən Naxçıvan MSSR Ali Sovetinin sessiyasında ümummilli liderimizin təşəbbüsü ilə “Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında”, “Naxçıvan Muxtar Respublikası Ali Dövlət hakimiyyəti orqanı haqqında”, “Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında” tarixi qərarlar qəbul olunmuşdur. Həmin qərarlara əsasən, müstəqilliyimizin əsas atributlarından olan Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı qəbul olunmuş və bu bayraq ilk dəfə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclas salonunda qaldırılmışdır.

Dahi şəxsiyyət Azərbaycan Xalq Cümhuriyyətinin ölkəmizin dövlətçilik tarixində rolunu həmişə yüksək qiymətləndirmiş, cümhuriyyətin xalqımızın azadlıq və müstəqillik arzularını daha da gücləndirdiyini bildirmişdir. Ulu öndərimiz Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışdığı dövrdə, 1993-cü il mayın 27-də Azərbaycan Xalq Cümhuriyyətinin 75 illik yubileyi ilk dəfə Naxçıvanda qeyd olunmuşdur.

Görkəmli dövlət xadimi Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələblərindən sonra ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışı Azərbaycanı məhv olmaq təhlükəsindən xilas etmiş, dövlət müstəqilliyimiz möhkəmləndirilmişdir. Ötən dövrdə Azərbaycan beynəlxalq hüququn subyekti kimi sübut etmişdir ki, o, Şərqdə və müsəlman aləmində ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin ləyaqətli varisidir, onun davamçısıdır və ənənələrinə sadiqdir.

Bu gün Azərbaycanda ümummilli liderimizin müəyyənləşdirdiyi siyasi xətt uğurla davam etdirilir. İqtisadi, siyasi, hərbi gücünə görə Azərbaycan artıq regionda lider mövqe tutmuşdur. Müstəqilliyimizin bizə verdiyi bəhrələr ölkəmizin bütün dünyada tanınmasına, qəbul olunmasına imkan vermişdir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin qurub-yaratdığı və böyük öndərimizin mənəvi-siyasi irsinin layiqli davamçısı Prezident İlham Əliyevin işıqlı gələcəyə doğru apardığı azad, müstəqil Azərbaycan dövləti bu gün mühüm beynəlxalq tədbirlərə ev sahibliyi edir, öz milli, mədəni və multikultural dəyərləri ilə dünya ölkələri üçün əsl nümunəyə çevrilir. ***“Azərbaycanın müstəqilliyi əbədidir, daimidir, dönməzdir”***, – deyən ulu öndər Heydər Əliyevin memarı olduğu Azərbaycanın müstəqilliyi bundan sonra da qorunacaq və daim əbədi olacaqdır.

**“Şərq qapısı”**

*24 il bundan öncə Naxçıvanda Azərbaycanla Türkiyəni birləşdirən "Ümid körpüsü" istifadəyə verilmişdir. Ona görə də 1992-ci ilin 28 may tarixi iki qardaş xalqı bir-birinə qovuşdurmaq, yurddan-yurda, könüldən-könülə körpü salmaq və ən nəhayət, ağır blokada vəziyyətində olan Naxçıvanın yaşaması və inkişafı baxımından özündə bir çox mətləbləri birləşdirir. Sədərək-Dilucu körpüsü haqlı olaraq "Ümid", "Həsrət" və ya "Könül" körpüsü adlandırılır. Bu körpü Türkiyə ilə Azərbaycanı birləşdirməklə Türk dünyasının coğrafi bütünlüyünü də təmin edir. Bu baxımdan, çətin ki, dünyanın başqa bir yerində mənəvi cəhətdən bu qədər dəyəri olan, istifadəyə verilməsi bayrama çevrilən, insanların içindəki ümidi, həsrəti, könül bağlılığını ifadə edən ikinci bir körpü olsun.*

## Bir millətin, iki dövlətin körpüsü

24 il bundan öncə Naxçıvan tamamilə təklənmişdi. Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın əsas ərazisi ilə nəqliyyat-kommunikasiya əlaqələri kəsilmiş, iqtisadi böhran dərinləşmişdi. Azərbaycanın ozamankı iqtidarı ölkədaxili vəziyyətə nəzarət edə bilmirdi. Belə bir şəraitdə – blokada vəziyyətində Naxçıvanın yeganə çıxış yolu qonşu ölkələrlə yeni əlaqələrin qurulması idi. O dövrdə Türkiyə ilə münasibətlərin bərpası istiqamətində Naxçıvanda görülən işlər, atılan addımlar Azərbaycan-Türkiyə münasibətlərinin gələcəyinə – bu gününə istiqamətlənmişdi. Məlumdur ki, sovet rejimi 70 il ərzində iki qardaş xalqın bir araya gəlməsinə mane olmaq üçün bütün ideoloji vasitələrini işə salmış, müxtəlif qadağalar tətbiq etmişdi. Zaman göstərdi ki, bütün növ məhdudiyyətlər və məhrumiyyətlər nəinki içimizdəki qardaşlıq duyğularını, türklük sevgisini yox edə bilməmiş, əksinə, könüldən-könülə sarsılmaz tellər, qırılmaz bağlar yaranmış və yaşamışdır.

Ulu öndər Heydər Əliyev Naxçıvana qayıdandan sonra Qars və Moskva müqavilələri yenidən siyasi müstəviyə çıxarılmış, böyük Atatürkün "Türk qapısı" adlandırdığı bu qədim yurd yerində "Bir millət, iki dövlət" şüarı reallığa çevrilmişdi. 1991-ci il oktyabrın 29-da Türkiyə ilə Naxçıvan arasında müvəqqəti körpü açılmış, əsas körpünün inşası sürətləndirilmişdi. Bu məsələ dahi rəhbərin 1992-ci il mart ayının 22-dən 24-dək Türkiyəyə gerçəkləşən səfəri çərçivəsində Ankarada imzalanmış əməkdaşlıq protokolunda da öz əksini tapmışdı.

Naxçıvanla Türkiyə arasında Sədərək-Dilucu körpüsünün istifadəyə verilməsi ilə blokadanın ağır fəsadlarının tədricən aradan qaldırılmasına, əhalinin maddi rifah halının yaxşılaşdırılmasına, muxtar respublikanın dünyaya tanıdılmasına başlanmışdır. Eyni zamanda bu, Türkiyənin şərq vilayətlərinin inkişafına da təkan vermiş, nəqliyyat əlaqələrinin inkişafı və beynəlxalq daşımalar üçün yeni istiqamət meydana gəlmişdir. Ulu öndər Heydər Əliyev sonralar körpünün açılışı zərurətini belə xarakterizə etmişdir: ***"Belə bir körpü tikmək bizim bir azərbaycanlı kimi, şəxsən mənim on illərlə qəlbimdə olan arzu idi. Bu fikir mənim qəlbimdə on illərlə yaşayırdı. Mən özümü xoşbəxt hesab edirəm ki, gördüyüm bütün başqa işlərlə bərabər, o ümid, həsrət körpüsünün qısa müddətdə tikilməsinin, yaranmasının təşəbbüskarı oldum".***

"Ümid körpüsü"nün istifadəyə verildiyi gün Naxçıvanda əsl bayram sevinci yaşanmışdı. Naxçıvanlılar bu tarixi unutmur. Türkiyə-Azərbaycan, Naxçıvan əlaqələrinin qurulması, inkişafı və dərinləşməsi istiqamətində görülmüş işlər daim ehtiramla xatırlanır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dediyi kimi: ***"Bizim bütün əlaqələrimiz qardaşlığımızın və dostluğumuzun əbədi nişanəsi, böyük Atatürkün və ümummilli lider Heydər Əliyevin izləri olan Sədərək-Dilucu körpüsü vasitəsilə həyata keçirilir. Fəaliyyət göstərdiyi dövrlərdə Sədərək-Dilucu körpüsü bizi bir-birimizə daha sıx birləşdirmiş, hər iki tərəfdən insanların həyatının yaxşılaşmasına xidmət göstərmişdir".***



Əsası ulu öndərimiz tərəfindən qoyulan Türkiyə ilə dostluq və qardaşlıq münasibətləri bu gün ən yüksək mərhələdə – strateji tərəfdaşlıq səviyyəsindədir. Azərbaycan-Türkiyə əlaqələrinin dinamikası Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikasının yaxın bölgələri arasında tarixən yaranmış münasibətlərdə də öz əksini tapır. Bu gün Türkiyə-Azərbaycan əlaqələrində, Türk dünyasının birlik və həmrəyliyində Naxçıvanın xüsusi yeri və önəmi vardır. Türkdilli dövlət başçılarının IX Zirvə Görüşünün Naxçıvanda keçirilməsi, sammit çərçivəsində "Naxçıvan bəyannaməsi"nin imzalanması bunun daha bir sübutu kimi mühum tarixi hadisədir. 2010-cu ilin oktyabr ayında Azərbaycan-Türkiyə Biznes Forumunun Naxçıvanda təşkili iqtisadi əlaqələrin yeni müstəvidə sürətli inkişafının göstəricisidir. Muxtar respublikanın sürətli sosial-iqtisadi inkişaf dinamikası, ixrac potensialı, eləcə də qarşılıqlı faydalı əməkdaşlıq imkanları türk iş adamlarının bölgəyə marağını artırır. Bu gün Türkiyə ilə Naxçıvan arasında bütün sahələrdə yaradılan qarşılıqlı əlaqələr durmadan inkişaf edir və möhkəmlənir.

2010-cu ilin aprel ayında Ali Məclis Sədrinin Türkiyəyə rəsmi səfəri çərçivəsində qardaş ölkənin dövlət və hökumət başçıları, ordu rəhbərliyi və digər rəsmi şəxslərlə keçirdiyi görüşlərin uğurlu nəticələri muxtar respublikanın iqtisadi inkişafı üçün əlavə imkanlar açdı. Naxçıvan Azərbaycanın Türkiyə ilə yeganə sərhəd bölgəsi olmaqla ikitərəfli münasibətlərin inkişafına təkan verdi. Bu gün qarşılıqlı münasibətlərdə Naxçıvan amili əsas götürülür, münasibətlərin mərkəzində Naxçıvan dayanır. Naxçıvanla bağlı yeni təkliflər irəli sürülür, layihələr icra olunur.

Türkiyə ilə Naxçıvan arasında başqa sahələrdə olduğu kimi, gömrük işi sahəsində də qarşılıqlı anlaşma şəraitində möhkəm əlaqələr mövcuddur. Son illərdə qarşılıqlı münasibətlərin daha da dərinləşməsi, birgə əməkdaşlığın gücləndirilməsi istiqamətində ardıcıl iş aparılır, müxtəlif sahələrdə razılıqlar əldə olunur. Gömrük orqanlarımız 24 saat fəaliyyət göstərir. Sədərək gömrük sərhəd-buraxılış məntəqəsi vasitəsilə dünyanın 30-dan çox ölkəsi ilə ticarət əlaqəsi yaradılır. Hazırda hər iki tərəfdən gömrük infrastrukturunun modernləşdirilməsi istiqamətində görülən işlər qarşılıqlı münasibətlərə verilən önəmin ifadəsidir. Dilucu sərhəd-keçid məntəqəsinin dövrün tələbləri nəzərə alınmaqla müasir şəkildə yenidən qurulması gömrük nəzarətinin sadələşdirilməsinə, ticarət əlaqələrinin daha da genişlənməsinə, iqtisadi imkanların artmasına əlverişli şərait yaradacaqdır.

Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında, qardaş Türkiyə ilə hərtərəfli əlaqələrində Sədərək-Dilucu körpüsünün müstəsna əhəmiyyəti vardır. Şərqlə Qərbin qovşağında, Böyük İpək Yolunun üzərində yerləşən bu qədim yurd yerinin sürətli sosial-iqtisadi inkişafı isə bölgənin turizm, eləcə də tranzit imkanlarını ildən-ilə artırır. Bütün bunlar isə onu deməyə əsas verir ki, ümidlərin və arzuların körpüsü olaraq bir millətin iki dövlətini birləşdirən körpü bundan sonra da iki qardaş xalqın firavanlığına, birliyinə və bütövlüyünə xidmət edəcəkdir.

**"Şərq qapısı"**

## "Naxçıvan – bəşəriyyətin beşiyi" III Beynəlxalq Rəsm Festivalı başa çatıb

***Mayın 27-də Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə "Naxçıvan – bəşəriyyətin beşiyi" III Beynəlxalq Rəsm Festivalında iştirak edən rəssamların əsərlərindən ibarət sərgi təşkil olunub.***

Sərgiyə baxışdan əvvəl çıxış edən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva muxtar respublikada digər yaradıcı sənət adamları kimi, rəssamların da fəaliyyəti üçün hər cür şərait yaradıldığını bildirib. Qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin yeni binasının və Bəhruz Kəngərli adına Sərgi Salonunun istifadəyə verilməsi, Naxçıvan şəhərində Bəhruz Kəngərli adına Rəssamlar Parkının yaradılması, rəssamların fəxri adlarla təltif





olunması, Naxçıvanda yaşayıb-yaradan rəssamlara beynəlxalq sərgilərdə iştirak etmək üçün dəstək verilməsi, onların yaradıcılıq emalatxanaları ilə təmin olunması bunun bariz nümunəsidir. 2012-ci ildən etibarən Naxçıvanda təşkil olunan "Naxçıvan – bəşəriyyətin beşiyi" Beynəlxalq Rəsm Festivalının keçirilməsi muxtar respublika rəhbərinin Naxçıvanda rəssamlıq sənətinin inkişafına qayğısının daha bir təzahürüdür.

Ülviyyə Həmzəyeva beynəlxalq rəsm festivalının bütün iştirakçıları adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov, mədəniyyət və turizm naziri Natəvan Qədimova və Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva festival iştirakçılarına xatirə plaketi və diplomlar təqdim ediblər.

Festival iştirakçıları – Azərbaycan Respublikasının Xalq rəssamı Ağəli İbrahimov, türkiyəli rəssam Nilüfər İnaltonq, Gürcüstandan gəlmiş Tamar Lamparadze və başqaları onlara göstərilən qonaqpərvərliyə və səmimi münasibətə görə minnətdarlıqlarını bildiriblər.

Sonra sərgiyə baxış olub. Sərgidə Naxçıvanın tarixi və memarlıq abidələri, füsunkar təbiətini əks etdirən rəsm əsərləri muxtar respublika ictimaiyyəti tərəfindən böyük maraqla qarşılanıb.

Sonra festival iştirakçıları Bəhruz Kəngərli adına Sərgi Salonunda naxçıvanlı rəssamların əsərlərindən ibarət sərgiyə baxıb, "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksində və Duzdağ Fizioterapiya Mərkəzində olublar.

Bununla da, "Naxçıvan – bəşəriyyətin beşiyi" III Beynəlxalq Rəsm Festivalı başa çatıb.

**Xəbərlər şöbəsi**

## Naxçıvan qədim tarixi, zəngin mədəniyyəti, ecazkar təbiəti ilə hər bir rəssamın diqqətini cəlb edir

***Qədim oğuz yurdu olan Naxçıvan daha bir möhtəşəm beynəlxalq tədbirə ev sahibliyi etdi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə mayın 26-da "Əlincəqala" tarixi abidəsində "Naxçıvan – bəşəriyyətin beşiyi" III Beynəlxalq Rəsm Festivalının açılış mərasimi oldu. Mayın 27-də isə Heydər Əliyev Sarayında festivalda iştirak edən rəssamların çəkdiyi əsərlərdən ibarət sərgi təşkil edildi. Həmin rəssamlardan bir neçəsi ilə həmsöhbət olduq, onların festival və Naxçıvan barədə təəssüratlarını öyrəndik.***

*Hülya SEZGİN – Türkiyənin FEMİN ART Beynəlxalq Assosiasiyasının üzvü, rəssam-yazıçı:*



– "Naxçıvan – bəşəriyyətin beşiyi" III Beynəlxalq Rəsm Festivalı çox yüksək səviyyədə keçirildi. Hər şey möhtəşəm idi. Qeyd edim ki, bundan əvvəlki festivalda da iştirak etmişdim və həmin festival məndə xoş təəssüratlar yaratmışdı.

Naxçıvanda şəhər mədəniyyətinin tarixi beş min ildən çoxdur. Bu diyar qədim tarixi, zəngin mədəniyyəti ilə hər bir rəssamın diqqətini cəlb edir. Təsadüfi deyil ki, qədim yunan alimi Ptolomey Naxçıvan barədə yazarkən, buradan insanların rifah halının yüksək olduğu şəhər kimi bəhs edib. Əsrlər boyunca baş verən ardıcıl işğallar nəticəsində dəfələrlə dağıdılan və təkrar qurulan Naxçıvan bu gün bir elm və mədəniyyət mərkəzidir. Buradakı tarixi abidələrə göstərilən diqqət isə alqışa layiqdir. Əlincəqalanın bərpası timsalında biz bunun bir daha şahidi olduq.

Mən görkəmli rəssam Bəhruz Kəngərlinin adını daşıyan parkın və onun abidəsinin istifadəyə verilməsi ilə əlaqədar keçirilən tədbirdə də iştirak və çıxış etdim. Əminəm ki, gələcəkdə bu parkda rəssamlar vətənpərvər sənətkar Bəhruz Kəngərli sənətindən ilham alaraq dəyərli əsərlər yaradacaqlar. Necə ki biz möhtəşəm Əlincəqaladan ilham alaraq əsərlər yaratdıq. Biz – dünya rəssamları bu gözəl addımı birlikdə atdıq. Naxçıvan bu tədbirlə bəşəriyyəti dostluğa, birliyə və sülhə səslədiyini bütün dünyaya göstərmiş oldu.

*Tamar LAMPARADZE – Gürcüstan-Azərbaycan Assosiasiyasının rəhbəri:* – Bu gün Naxçıvan Muxtar Respublikasına müxtəlif ölkələrdən gələn biz rəssamların ortaq fikri budur ki, "Naxçıvan – bəşəriyyətin beşiyi" III Beynəlxalq Rəsm Festivalı rəssamlar arasında artıq sənət və dostluq simvoluna çevrilib. Bu festivalda, eləcə də Bəhruz Kəngərli adına Rəssamlar Parkının açılışında iştirak etmək mənim üçün böyük şərəfdir.



Bu iki möhtəşəm hadisəni nəinki Naxçıvanın, hətta bütün regionun sənət tarixinin çox əhəmiyyətli hadisələri kimi qiymətləndirərdim. Böyük Azərbaycan rəssamı Bəhruz Kəngərli Gürcüstanda da sevilir, onun yaradıcılığına yüksək qiymət verilir. Bəhruz Kəngərlinin həyatının bir hissəsi Tiflisdə keçib, orada təhsil alıb. Bu baxımdan onun xatirəsi gürcü xalqı üçün də əzizdir.

Naxçıvana gəlməyə həm də ona görə sevinirəm ki, Bəhruz Kəngərli yaradıcılığı ilə bir daha yaxından tanış olmaq imkanı qazandım. Bəhruz Kəngərli Muzeyində onun əsərləri qarşısında heyranlığımı gizlədə bilmədim. Müşahidə etdim ki, o, nə çəkibsə, qəlbən çəkib və gözəl rəsm əsərləri yaradıb. Naxçıvan əsl sənət məkanıdır. Bu qədim diyarın füsunkar təbiəti, əzəməti qarşısında söz də aciz qalır, rəng də, fırça da. Mən bir daha beynəlxalq festivalın təşkilatçılarına, xalqlar arasında dostluq, mədəniyyət körpüsü salanlara səmimi minnətdarlığımı bildirirəm.

*Javidus Gülçin RUQEYYA – İran İslam Respublikasının Urmiya şəhəri:*



– Naxçıvan çox gözəl bir diyardır. Burada Əshabi-Kəhf kimi möhtəşəm bir ziyarətgah, bölgənin tarixini özündə əks etdirən, nəsillərə çatdıran tarixi abidələr var. Hər biri də bir-birindən gözəl və maraqlıdır. Onların qorunub saxlanılması böyük vətənpərvərliyin, tarixə bağlılığın nişanəsidir. "Əlincəqala" tarixi abidəsi də bu baxımdan diqqəti cəlb edir. Bizə məlumat verildi ki, çox yüksəklikdə yerləşən bu tarixi abidə əsrlərin yadigarı kimi bərpa olunub.

Naxçıvan şəhəri də özünün gözəlliyi ilə məni heyran etdi. Hər tərəfdə təmizlik, abadlıq hökm sürür. Muxtar respublikanın şəhərləri, kəndləri, tarixi abidələri, təbiəti hər bir rəssam üçün ilham mənbəyidir. Naxçıvan şəhərinin 2018-ci ildə İslam mədəniyyətinin paytaxtı seçilməsinin bu diyarın daha yaxşı tanıdılmasına təkan verəcəyi şübhəsizdir. "Naxçıvan – bəşəriyyətin beşiyi" III Beynəlxalq Rəsm Festivalında iştirak etdiyim üçün çox məmnunam.

**✍ Rauf ƏLİYEV**

## Naxçıvanda ilk dəfə təşkil olunan “Heydər Əliyev kuboku” uğrunda futbol turniri başa çatıb

***Mayın 25-də Naxçıvan Muxtar Respublika Stadionunda start götürən, ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş “Heydər Əliyev kuboku” uğrunda futbol üzrə turnir başa çatıb.***

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin, Futbol Federasiyasının və Azərbaycan Peşəkar Futbol Liqasının birgə keçirdikləri turnirdə 4 komanda mübarizə aparıb. Belə ki, Azərbaycan Birinci Divizionunun qalibi “Neftçala”, həmçinin bu liqada çıxış edən MOİK, “Şərurspor” və Naxçıvanın “Araz-Naxçıvan” komandaları turnirdə birincilik uğrunda meydana çıxıblar.

May ayının 25-də keçirilən ilk görüşlərdə meydana “Araz-Naxçıvan” və “Neftçala” komandaları çıxıb. Görüş Neftçala təmsilçisinin 3:0 hesablı qələbəsi ilə başa çatıb. Digər görüşdə isə “Şərurspor” və MOİK komandaları üz-üzə gəlib. Oyunun əsas vaxtı heç-heçə (2:2)



başa çatdığından qalibi müəyyənləşdirmək üçün penalti zərbələri yerinə yetirilib. 11 metrlik zərbələri daha dəqiq yerinə yetirən MOİK futbolçuları (1:3-pen) finala yüksəliblər.

Mayın 27-də keçirilən üçüncülük oyununda “Araz-Naxçıvan” “Şərurspor”la üz-üzə gəlib. Hesabda 2:0 öndə olmasına baxmayaraq, “qırmızı-ağlar” bu üstünlüklərini sonadək qoruya bilməyiblər. Oyunda “status-kvo”nu bərpa edən “Şərurspor” penalti zərbələrini daha dəqiq yerinə yetirərək (3:4) turnirin bürünc medalını qazanıb. Final görüşündə isə MOİK və “Neftçala” qarşılaşıb. Görüşün taleyini bir qol həll edib.

Bu qələbə nəticəsində turnirin qalibi adını “Neftçala” qazanıb. Turnirin ən məhsuldar futbolçusu isə qalib komandanın hücumçusu Məhəmməd Alıyev olub. “Ən yaxşı futbolçu” nominasiyasında isə “Araz-Naxçıvan”ın müdafiəçisi Vüsal Abdullayev fərqlənib.

Sonda qalib komandalar mükafatlandırılıb. Mükafatları Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov, Futbol Federasiyasının sədri Səbuhi Şahverdiyev və Azərbaycan Peşəkar Futbol Liqasının prezidenti Ramin Musayev təqdim ediblər.

Qeyd edək ki, keçirilən görüşləri Peşəkar Futbol Liqası tərəfindən təyin edilmiş hakimlər briqadası idarə edib.

**Ceyhun MƏMMƏDOV**



***Dünən Naxçıvan Müəllimlər İnstitutunda muxtar respublikanın tam orta məktəblərinin müəllimlərinin cəlb edildiyi Smart Notebook proqramları və elektron lövhədən istifadə qaydaları üzrə təşkil edilən 60 saatlıq, ongünlük ixtisasartırma kurslarını bitirənlərə sertifikatların təqdimetmə mərasimi keçirilib.***

## İxtisasartırma kursunu bitirənlərə sertifikatlar təqdim edilib



Tədbirdə ali təhsil ocağının rektoru, professor Oruc Həsənli çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi diqqət və qayğısı sayəsində məktəblərimizdə müasir informasiya-kommunikasiya texnologiyaları avadanlıqları quraşdırılır, həmin avadanlıqlar internet şəbəkəsinə qoşulur. Son illərdə təhsil ocaqlarının elektron lövhələrlə təchizatı da diqqətdə saxlanılaraq ümumtəhsil məktəbləri 600-dən çox elektron lövhə ilə təmin edilib.

Qeyd olunub ki, dərsdə elektron lövhənin tətbiqi müəllimlə şagird arasında informasiya mübadiləsinin səmərəliliyinin yüksəldilməsinə geniş imkan yaradır.

Sonra kursu bitirən müəllimlərə sertifikatlar təqdim edilib.

Tədbirdə Naxçıvan Müəllimlər İnstitutunun informatika müəllimləri Səminə Rüstəmova və Kəmalə İbrahimova çıxış edərək elektron lövhənin üstünlüklərindən danışıblar.

Kursu başa vuran müəllimlərdən Günay Baxşəliyeva, Qurban Məmmədov, Təranə Quliyeva və Lamiyə Hacızadə çıxış edərək belə kursların təşkil edilməsinə görə minnətdarlıqlarını bildiriblər.

İxtisasartırma kursları davam edir.

**Xəbərlər şöbəsi**

## Naxçıvanlı kardiocərrahlar müstəqil şəkildə ilk açıq ürək əməliyyatları aparıblar

Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində çoxsaylı aparat və avtoanalizatorla təchiz edilmiş laboratoriyalar, qan bankı, pulmonoloji, stomatoloji, LOR, oftalmoloji, terapevtik, ginekoloji və tam komplektləşdirilmiş fizioterapevtik kabinələr fəaliyyət göstərir. Şöbə və kabinələrdə qurulmuş müasir aparat və cihazların köməkliyi ilə müxtəlif üzv və sistemlərin hərtərəfli müayinəsinin aparılması mümkündür. Mərkəzi sinir sistemi və əzələlərinin fəaliyyətinin müayinə üsulları regionda ilk dəfə olaraq burada tətbiq edilməyə başlanılıb.

May ayının 26-da daha bir uğura imza atılıb. Belə ki, Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin kardiocərrahları İntiqam Fətullayev, Cabir Gülməliyev və anestezioloq-reanimatoloq Şahin Mazanov tərəfindən ilk dəfə olaraq müstəqil şəkildə 2 açıq ürək əməliyyatı aparılıb. Babək rayonunun Cəhri kəndindən gəlmiş İbrahim Quliyev və Naxçıvan şəhər sakini İsmayıl İsmayılov əməliyyatdan sonra palataya yerləşdiriliblər. Xəstələr bir neçə günlük müşahidə altında qaldıqdan sonra evə buraxılacaqlar.

Mayın 27-də daha iki əməliyyat aparılıb. Babək rayon Yarımca kənd sakini, 27 yaşlı Sevinc Məmmədova üzərində aortakoronar-şuntlama zamanı ürəyin sağ qulaqcığında olan xoşxassəli şiş kəsilərək götürülüb.

Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin kardiocərrahları tərəfindən açıq ürək əməliyyatları bundan sonra mütəmadi şəkildə davam etdiriləcəkdir.

Qeyd edilməlidir ki, indiyədək belə mürəkkəb əməliyyatlar üçün xəstələr ölkəmizin paytaxtına və digər ünvanlara üz tutmalı olurdular. Azərbaycan Səhiyyə Nazirliyi Mərkəzi Neftçilər Xəstəxanası Ürək və damar xəstəlikləri şöbəsinin yüksəkixtisaslı həkim heyətinin bir sıra mürəkkəb əməliyyatların, o cümlədən açıq ürək əməliyyatlarının Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində həyata keçirməsi yerli mütəxəssislərin peşə bacarıqlarının yüksəldilməsində mühüm rol oynayıb. Bütün bunların nəticəsidir ki, artıq muxtar respublikanın yerli kadrları müstəqil şəkildə xəstələr üzərində bir sıra mürəkkəb cərrahi əməliyyatları uğurla həyata keçirirlər.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Uşaqlar üçün tamaşalar göstərilib



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”nda bu kateqoriyadan olan uşaqların istedadlarının aşkara çıxarılması və onların asudə vaxtının səmərəli təşkili üçün bir sıra tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub. İl ərzində bu istiqamətdə müxtəlif tədbirlər keçirilib.

Həmin tədbirlərin davamı kimi dünən Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi və Mədəniyyət və Turizm nazirliklərinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Uşaq Teatrında məhdud fiziki imkanlı uşaqlar üçün “Meşə çaqqalsız olmaz” tamaşası nümayiş etdirilib.

1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə hazırlanan, yazıçı Əli Səmədovun əsəri əsasında nümayiş etdirilən tamaşada alleqorik şəkildə ədalət, həqiqət uğrunda mübarizə əks etdirilir. Tamaşanın rejissorları Tofiq Seyidov və Nurbəniz Niftəliyevadır. Səhnə əsərində Nurgül Müslümova (Tülkü), Murad Namazov (Çaqqal), Cəfər Cəfərov (Dovşan), Məftun Bağırov (Kirpi), Məmməd Hüseynov (Dələ), Nicat Namazov (Ayı), İlkin Novruzov (Ağacdələn), Mais Hacıyev (Arı) maraqlı alleqorik surətlərin dili ilə günümüzlə səsləşən hadisələri canlandırıblar.

Məlumat üçün bildirək ki, tamaşada bütün rolları məhdud fiziki imkanlı uşaqlar ifa ediblər.

Sonda tamaşanın balaca aktyorlarına maraqlı ifalarına görə hədiyyələr təqdim edilib.

**Əli RZAYEV**

* * *

***Naxçıvan Dövlət Uşaq Teatrı bu günə qədər 20-yə yaxın səhnə əsərini uşaqlara təqdim edib, onların rəğbətini qazanıb. 10 yaşlı mədəniyyət müəssisəsi yeni tamaşa ilə balacaların görüşünə gəlib. Belə ki, teatrın kollektivi Abdulla Şaiqin “Danışan kukla” əsərini səhnələşdirib.***

Dünən həmin tamaşa dərslərini əla oxuyan və aztəminatlı ailələrin uşaqlarına göstərilib. Uşaqların dostluq və mehribanlığından bəhs edən səhnə əsərində bu gözəl duyğulara valideynlərin laqeyd münasibəti tənqid edilir.

Tamaşanın quruluşçu rejissoru Nurbəniz Niftəliyevadır. Səhnə əsərində peşəkar aktyorlarla yanaşı, orta məktəblərin şagirdləri və ali təhsil ocaqlarının tələbələri də rol alıblar. Onlardan Mehri Nəbiyeva, Suat Əhmədov, Turac Hacızadə, Uğur Nəsirli, Vəli Babayev, Nurlan Sultanlı, Ülviyyə Şirinova, Aysu Qurbanova və başqalarının oynadıqları rollar uğurlu alınıb.



Tamaşa maraqlı tərtibatı və şən musiqisi ilə balacalar tərəfindən maraqla qarşılanıb.

**Sara ƏZİMOVA**

## 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü ilə əlaqədar ekskursiya təşkil olunub

*Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə sağlamlıq imkanları məhdud, hər iki valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş, həmçinin aztəminatlı ailələrin uşaqlarının tarixi abidələrə və muzeylərə ekskursiyaları təşkil edilib.*

Ekskursiya iştirakçıları əvvəlcə Heydər Əliyev Muzeyində olublar. Muzeydə uşaqlara ulu öndər Heydər Əliyevin Azərbaycanın parlaq gələcəyi naminə gördüyü işlər haqda söhbət açılıb, eksponatlar barədə məlumat verilib. Uşaqların çox maraq göstərdikləri eksponatlardan biri ulu öndərimizin xalqa üzərinə köçürülmüş ailə fotosu olub.



Sonra uşaqlar Duzdağ Fizioterapiya Mərkəzinə aparılıblar. Mağarada yaradılan mərkəz uşaqların böyük marağına səbəb olub.

Ekskursiya iştirakçıları Dövlət Bayrağı Meydanı və Muzeyini, “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksini də ziyarət ediblər.

Sonda ekskursiyada iştirak edənlər Naxçıvan Dövlət Film Fondunda vətənpərvərlik mövzusunda filmə baxıblar. Uşaqlara hədiyyələr təqdim olunub.

## Qanvermə aksiyası keçirilib

1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü ilə bağlı muxtar respublikada silsilə tədbirlər keçirilir. Mayın 27-də Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşlarının iştirakı ilə hemofiliya və talassemiya xəstəsi olan uşaqlar üçün keçirilən qanvermə aksiyası bu tədbirlərin davamı olub. Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində təşkil edilən aksiyada 21 nəfər könüllü olaraq qan verib. Qeyd edək ki, könüllülər qanvermədən əvvəl tibbi müayinədən keçiblər, onlardan qan nümunələri götürülüb. Donorlarda infeksion xəstəliklərə qarşı yoxlama aparılıb. Götürülən 7 litrə yaxın qanın qrupları müəyyənləşdirilərək mərkəzin qan bankına təhvil verilib. Hazırda qan bankında xəstələrə köçürülmək üçün kifayət qədər ehtiyat yaradılıb. Tələbatdan artıq donor qanından plazma hazırlanaraq qan bankında saxlanılacaqdır.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

***İtmişdir***

Əliyev Hüseyn Elçin oğlunun adına Naxçıvan Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1050. Sifariş № 416